# Şəhid ayağının tozu belə olmayanlar...



Adətən kəndarası yoldan asfalta çıxanda ayağımızın tozunu çırpardıq.
Tökülən tozdan yerdə ayaq izlərimiz qalardı!
Tozdan ayaq çırpmaqla yaxa qurtarardıq!
Amma hərdən həmin tozun çox qiymətli olduğunu sübut edən əhvalatlar, rəvayətlər də eşitmişik.

**Ayaqqabımıza yapışan tozu qiymətə mindirən səbəb isə onun "vətən tozu" olmasıdır!**

...Uzun müddət qürbətdə yaşayıb vətən həsrəti çəkən (yəqin ki, hansı ciddi səbəblərdənsə vətənə gələ bilməyən) insanlar öz həmyerlilərini görəndə "qoy ayağının tozundan öpüm, vətən tozundan" dediklərini eşitmişik.

Yüzlərlə məcburi köçkün "əmanət qəbirlər"də yatır.

*İşğaldakı vətən torpağının həsrəti ilə yüzlərlə dünyasını dəyişən insan hələ də gor evində doğma obasından gətirilib qəbri üstünə töküləcək "vətən torpağı"nı (vətən tozunu) gözləyir!*

**Bəli, tozun da müqəddəsi olur!**

❖ ❖ ❖

Qarabağ uğrunda döyüşlərdə 20 mindən çox şəhid vermişik.

Əksəriyyəti də cavan olub!

Aralarında həyatdan nakam gedən gənclər də çoxdur!

*Amma onların hamısı bu yaşlarında ən uca zirvəyə - şəhidlik zirvəsinə yüksələ bilib!*

*Vətənə sonsuz məhəbbətləri ilə!*

*Ölümə qalib gələrək ölümsüzlüyə qovuşduqlarına görə!*

*Dünyada sahib olduqları ən böyük dövləti və neməti - öz canlarını vətənə fəda edə bildiklərinə görə!*

*Odur ki, onlar bizim hamımızdan yüksəkdə dayanırlar!*

*Şəhidlik zirvəsində!*

**Şəhidlərin ayaqlarındakı toz da çox qiymətli sayılır!**

**Vətən şəhidlərinin vətən tozu olduğuna görə!**

❖ ❖ ❖

Qarnı üçün yaşayanlar, "vətən", "torpaq", "ana", "müstəqillik", "demokratiya" kimi sözlərdən qazanc götürmək naminə istifadə edənlər də tapılır.

Təəssüf ki, bəzən belələri müəyyən istedad sahibi də olurlar!

Titullar qazanırlar...

Fəxri adlara layiq görülürlər...

Dövlət mükafatları alırlar...

Orden və medallarla təltif edilirlər...

**Amma həyatın elə məqamı gəlib çatır ki, miskinliklərini, cılızlıqlarını ortaya qoyurlar!**

**Dediklərinin və yazdıqlarının həyatdakı əməlləri ilə ziddiyyət, əkslik təşkil etdiyini göstərirlər!**

**Əsl simalarını yeni "yaradıcılıqları" ilə aşkara çıxarırlar!**

Əkrəm Naibovun "Daş yuxuları" kimi!

Rüstəm İbrahimovun ("bəy" sözü cümhuriyyət liderlərinə yaraşır, belələrinə yox) "Qafqaz triosu" kimi!

*Xalq belələrinin əsl simasını görüb nifrət edir!*

*Öz sevgisini və verdiklərini geri alır!*

*Onların özlərini də, yaratdıqlarını da nifrət hədəfinə çevirir!*

*Cəmdəyinə tüpürür!*

**Əkrəm Naibov kimilərinin!**

**Rüstəm İbrahimov kimilərinin!**

Hələ də onların "azərbaycanlı" adını daşımaları ilə barışmaq istəmirsən!

Xaricdə oturub "demokratiya" və "insan haqları" pərdəsi altında beş-on quruşa görə vətəni satanların;

Gor evinə yaxın olan belə simasız dönüklərin öləndən sonra harada və necə basdırılacaqlarını, keçmiş milləti və xalqı tərəfindən necə, hansı adla anılacaqlarını düşünməyənlərin;

Yetmişdən yuxarı yaşayaraq 20-30 yaşlı şəhidlərin ayaqlarının tozu belə ola bilməyəcək keçmiş "ziyalılar"ın, "əsər" sahiblərinin!

Allah sizə rəhmət eləsin, Şəhidlər!

Allah sizə lənət eləsin, vətən xainləri!

❖ ❖ ❖

"Qafqaz triosu"nda bir səhnə var: əsərin müəllifi (ssenarisini yazan) özgə süfrəsi arxasında oturaraq badə qaldırır...

Bəli, belələri bir qarın yaldan ötrü düşmən süfrəsində tülkülük etməyi sevirlər!

Nizami Gəncəvi kimi öz halal süfrələrinin "şahı" ola bilmirlər!

*Çünki xislətləri budur!*

*Çünki üzə çıxan mahiyyətləri belədir!*

*Çünki sürünmək üçün yarananlar yüksəklikdə qərar tuta bilmirlər, ayaq altına düşürlər!*

**Ayaq tozu olurlar!**

**Amma murdar ayaqların murdar tozu!**

Rüstəm və Əkrəm kimi "ziyalılar", habelə vətəndən xaricdə yaşayıb qarınları üçün düşmənlə işbirliyi quran 5-ci kolon üzvləri satqınlardır!

Azərbaycan xalqına nankor çıxanlardır!

Azərbaycan ziyalılarının adına ləkə gətirənlərdir!

Xaricdə hansı səbəbdənsə yaşayan qeyrətli vətən övladlarının adını batıranlardır!

Millətimizə baş qaxınclarıdır!

Həm də şəhid ayağının tozu belə olmayacaq rəzillərdir!

**Bəxtiyar SADIQOV**